

# Geniş diapazonlu rəssam




Mən Röya Həsənlə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində bir yerdə işlədiyimə görə onu tanıyıram. O, hal-hazırda universitetdə “Təsviri sənət” kafedrasında bir pedaqoq kimi fəaliyyət göstərir.

3 aprel 2023-cü il tarixində onun universitetdə fərdi yaradıcılıq sərgisi açıldı. Mən də bu sərgidə iştirak etdim. Sərgidə onun təsvir etdiyi rəngkarlıq əsərləri, məni valeh etdi. Və bu sərgi mənə hədsiz dərəcədə xoş təsir bağışladı.

Mən bu xanım rəssamın yaradıcılığı ilə maraqlandım. Təsadüfən onun “İz” adlı rəngkarlıq əsərlərinin kataloqu əlimə keçdi. O, kataloqu gözdən keçirməyə başladım. Dəhşətə gəldim. 1980-ci il təvəllüdlü, 2014-cü ildə Azərbaycan Dövlət Rəssamlar İttifaqının üzvü olan Röya Həsənin geniş diapazonlu rəssam olmasına heyran qaldım.

Bu gənc rəssam təkcə rəngkarlıqla deyil, həm də bütün janrlarda: - Qrafika, keramika, Şüşə üzərində naxış sənəti, Heykəltaraşlıq, illüstrasiya və həmçinin, dzayn-dekorasiya ilə də məşğul olur. Onun yaratdığı əsərlərdə postimpersionizm, ekspressionizm və abstrakt üslublarına da üstünlük verir.

Röya Həsənin iştirak etdiyi sərgilərin sayı-hesabı yoxdur. Onların hamısından yazmaq qeyri-mümkündür. O, təkcə ölkə daxilində keçirilən çoxsaylı tədbir və sərgilərin iştirakçısı olmaqla yanaşı, bir çox xarici ölkələrdə də onun sərgiləri olmuşdur.

Bu sərgilərin bəzilərini aşağıda göstərə bilərik. Bunlardan: Fransa, İtaliya, İspaniya, Almaniya, Lüksenburq, Böyük Britaniya, Rusiya, Çexiya, Gürcüstan, Dubay, Türkiyə və sairə yerlərdə təşkil edilən səgi və sinpoziumlarda Röya Həsən Azərbaycanı təmsil etmişdir. Onun ölkə daxilində keçirilən sərgilərindən bəzilərini aşağıda göstərə bilərik:

Azərbaycan Respublikası yanında Gənclər Fondunun Maliyyə dəstəyi ilə keçirilmiş “Formula-1 Gənc Rəssamların Gözü ilə” sərgisi, “Azərbaycanda Multikulturalizmin mənbəyi” sərgisi, Xətai Sənət Mərkəzində “Vətən buradan başlayır” sərgisi, Rəssamlar İttifaqında “Dünyadan - bu günə” sərgisi, “Xocalı faciəsi” və Xocalı soyqırımının 30-cu il dönümünə həsr olunmuş sərgi, “Natavan Qalereyası” Sea Breeze” sərgisi, “Park Bulvar” sərgisi, “Start” layihəsi çərçivəsində gənc rəssamların inkişafı üçün təşkil olunan sərgi, “AZNAR” şirkətinin təşkil etdiyi sərgi, Heydər Əliyev fondunun 2022-ci ildə Şuşada təşkil etdiyi Art Simpozium “Bax! Gör! Hiss et!” fərdi sərgisi.

Heydər Əliyev fondunun vitse prezidenti L.Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən “LiveLife” Beynəlxalq sərgisinin I yer qalibi.

Mədəniyyət TV kanalının “Evdə qal - evdə yarat” layihəsinin iştirakçısı, “Vergül fərdi sərgisi”, “Qayıdış” adlı qəhrəmanlara dəstək sərgisi çərçivəsində keçirilən müsabiqədə I yer qalibi, Muzey Mərkəzində “Həmrəylik günü” sərgisi, Abşeron Qalereyası “Narkotikə yox!” sərgisi, Müasir İncəsənət Mərkəzi “Sülh” sərgisi və s.

Bu sərgiləri saymaqla qurtaran deyil. Bundan başqa, Röya Həsənin xarici ölkələrdə keçirilən sərgiləri haqqında da qısa məlumat verək:

Lüksemburqda keçirilən “Dostluq” adlı sərgi, Berlində keçirilən “Azərbaycan rəssamlarının qrup sərgisi”, Tbilisidə keçirilən “Azərbaycan və Gürcüstan rəssamlarının birgə sərgisi”, Parisdə Luvr muzeyində keçirilmiş “Art shopping” festivalın iştirakçısı və Parisdə “Karusel” qalereyasında keçirilən sərgi, Fransa səfirliyi tərəfindən səfirlikdə təşkil edilmiş sərgi və s.

Bütün bunları kataloqda görüb nəzərdən keçirəndə səmimi qəlbdən Röya xanımın yaradıcılığına vuruldum. Və qürur hissi keçirərək ona deyirəm: - Çox sağ ol, Röya xanım, sən hələ bu xalqa lazımsan. Sənə ulu tanrıdan sağlam can arzulayıram və arzum odur ki, həmişə sağlam yaşayıb öz xalqına xidmət edəsən. Sənə yaradıcılığında yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**
**Şahvələd müəllim,**
**rəssam - yazıçı**